AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, № 2 (268), 37-46

**A Z Ə R B A Y C A N   Ə D Ə B İ Y Y A T I**

# Bədii əsərin süjet quruluşunda mifologizmlər (Mövlud Süleymanlının "Dəyirman" povesti əsasında)

***Sevinc Əliyeva***
Filologiya üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi, AMEA Folklor İnstitutu, "Folklor və yazılı ədəbiyyat" şöbəsi. Azərbaycan.
E-mail: sevinc.k.aliyeva@gmail.com
https://orcid.org/0000-0002-5666-168X

**XÜLASƏ**
XX əsrin 70-80-ci illərində mifologizm geniş vüsət tapdı. Bu dövrdə M.Süleymanlı əsərlərində mifologizmlərdən daha çox istifadə etmiş sənətkarlardan biri kimi ədəbiyyat tarixinə düşdü və onun əsərləri yeni ədəbi qənaətlər baxımından da səciyyəvi hesab olundu. Sənətkarın yaradıcılığında rast gəldiyimiz mifologizmlər, folklorizmlər, folklor nümunələri yazılı ədəbiyyatın ədəbi-estetik yaxınlığını təyin edən amillərdən biri kimi diqqətimizi cəlb edir. Məhz bu səbəbdən, Azərbaycan bədii nəsrinin inkişafının bədii sənətkarlıq baxımından dolğunlaşmasında, folklor yaradıcılığına müxtəlif yönümdən yanaşılmasında, eləcə də zamanın tələblərindən doğan yeni ideya və məzmunla zənginləşməsində M.Süleymanlının xidmətləri xüsusi vurğulanır. Onun bədii nəsri öz müasirliyi, xəlqiliyi, sənətkarlığı və folklor ruhunun zənginliyi ilə seçilərək folklor mədəniyyətimizin inkişafında müstəsna rol oynamışdır.

**AÇAR SÖZLƏR**
M.Süleymanlı, mifologizm, folklorizm, bədii yaradıcılıq, yazılı ədəbiyyat, yazıçı, ədəbi nəticələr

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 18.05.2021
qəbul edilib: 25.05.2021

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2021, NO. 2, VOL. 268, 37-46

AZERBAIJANI LITERATURE

# Mythologisms in the plot structure of the work of art (based on the story "Deyirman" by Movlud Suleymanli)

***Sevinj Aliyeva***
PhD in Philology, leading researcher, "Folklore and written literature" department of the Institute of Folklore of ANAS. Azerbaijan.
E-mail: sevinc.k.aliyeva@gmail.com
https://orcid.org/0000-0002-5666-168X

**ABSTRACT**
Mythologism is widespread in the 70s and 80s of the XX century. M.Suleymanli went down in the history of literature as one of the writers who used mythologism in his works at these times and his works were also considered characteristic in terms of new literary conclusions. Certainly, mythologism, folklorism and other the examples of folklore we come across in the writer's activities attract our attention as one of the factors determining the literary and aesthetic closeness of written literature. For this reason, M.Suleymanli's literary services are especially emphasized in the development of Azerbaijani fiction in terms of artistic mastery, in different approaches to folklore, as well as in enriching it with new ideas and content born of the requirements of the time. His prose was distinguished by its modernity, folklore, craftsmanship and richness of folklore spirit and played an exceptional role in the development of our folklore culture. The writer's works are rich in folklore sourcesand the methods of description and characterization are colorful and original.

**KEYWORDS**
M.Suleymanli, mythologism, folklorism, literary creativity, written literature, a writer, literary conclusions

**ARTICLE HISTORY**
Received: 18.05.2021
Accepted: 25.05.2021

## Giriş / Introduction

Mövlud Süleymanlının bədii yaradıcılığının çox mühüm məna layını folklor təşkil etdiyindən, yazıçının bədii yaradıcılığında folklor motivləri, onların mifik təfəkkürlə əlaqəsi kimi məsələlər araşdırmamızın əsas tədqiqat mövzusu olması zərurətini yaradır. Bununla apardığımız araşdırma mifologizmlərin yazılı ədəbiyyatda tədqiqat mövzusu kimi aktuallığını və özəlliyini təmin edir. Mifologizmlərin yazılı ədəbiyyatda istifadəsinin imkanları və miqyas genişliyi, eləcə də folklor obraz və motivlərindən yazılı ədəbiyyatda bədiiləşdirmə vasitəsi kimi öyrənilməsi qeyd etdiyimiz araşdırmaya müqayisəli yanaşma tələb edir. Onu da qeyd edək ki, məqalədə nəzərdən keçirilən problemlər tarixi-müqayisəli metodla təhlil edilmişdir. Mövzunun araşdırılmasında tarixilik prinsipi, tipologiya metodu və sistemli təhlil üslubu əsas götürülmüşdür. Məqalədə ilk dəfə olaraq folklorizmlərin yazılı ədəbiyyata transformasiyası, eləcə də bədii əsərin süjet quruluşunda mifologizmlər (M.Süleymanlının "Dəyirman" povesti əsasında) geniş müstəvidə müqayisə və təhlil olunmuşdur. Qeyd etdiyimiz kimi, məqalə mifologizm və folklorizmlərin yazılı ədəbiyyatda ədəbi-nəzəri tədqiqi baxımından önəm kəsb edir və nümunələr əsasında sistemli şəkildə öyrənilir.

Bədii əsərin süjet quruluşunun mifologizmlərlə zəngin olması yazıçının folklor qaynaqlarından istifadə müxtəlifliyini göstərən amillərdən biri kimi diqqətimizi cəlb edir. Çünki folklor cəmiyyətə funksional təsir imkanları baxımından digər sahələrdən fərqləndiyi üçün, mifologizmlərlə zəngin olan əsərlər də mənəvi-əxlaqi dəyərlər baxımından fərqli, müsbət məna kəsb edir. Bu cür bədii əsərlərdə mifoloji ünsürlər, mifoloji düşüncə dəyişikliyi və mifoloji qarşıdurma da ön plana keçir. Bu isə əsərin orijinallığını, oxucuya təsir gücünü və aktuallığını artıran amillər sırasındadır. Bədii əsərlər folklorizm və mifologizm baxımından nə qədər güclü olsa, mifologiya, folklor və yazılı ədəbiyyat münasibətlərinin öyrənilməsinə dair bir o qədər səmərəli elmi tədqiqat işi aparmaq olar.

Ümumiyyətlə, folklor və mifologiya ilə zəngin olan bədii əsərlərdə obrazların xarakteri və tipikləşdirilməsi, eləcə də folklorizmlərdən geniş istifadə olunması milli ənənələrin, əxlaqi dəyərlərin yazılı ədəbiyyatda tərənnüm olunmasına geniş imkanlar açdı. Bu isə mənəvi-əxlaqi dəyərlərin cəmiyyətin müasir fərdlərinin təfəkkürünə transfer edilməsi baxımından da əhəmiyyətlidir. Eyni zamanda insan və mifoloji təsəvvürlərin paralelliyi ədəbiyyatımızda dəyişən və marağını itirməyən mövzulardan biridir. Çünki mifoloji ünsürlər cəmiyyətə birbaşa təsir imkanlarına malikdir və onlar daha çox folklorun spesifikası ilə şərtlənir. Professor C.Qasımovun da qeyd etdiyi kimi "folklorla mifologiyanın bağlılığı o səviyyədədir ki, mifologiyanı bilmədən

folkloru araşdırmaq səthi və yarımçıq nəticələr verər” [8, s.423]. AMEA-nın müxbir üzvü K.Əliyevin də təfsirindən aydın olur ki, “folklor xalqın bədii düşüncəsinin ifadəsi olduğuna görə daha zəngin və daha dözümlü mədəni irs hesab edilir. Əhatə dairəsinin genişliyi ilə seçilən folklor xalq düşüncəsi ilə bədii düşüncənin harmoniyasının, həmahəngliyinin, uyğunluq səviyyəsinin də təcəssümüdür. Folklor nümunəsi mətnin məzmunu ilə xalqın istək və arzuları arasındakı ziddiyyətləri və əkslikləri qətiyyətlə rədd edir və əslində bu, nümunənin hansı xalqa mənsubluğunun da açarıdır” [5, s.302]. Onu da vurğulayaq ki, sənətkarlarımızın folklor qaynaqlarına müraciəti şüurlu, məqsədli və ya qeyri-ixtiyari şəkildə olmuşdur. Bu baxımdan hər bir yazıçının folklordan istifadə formalarını aşağıdakı kimi qruplaşdıra bilərik:

1.Yazıçının folklora məqsədli şəkildə müraciəti;

2. Yazıçının folkora qeyri-ixtiyari müraciəti.

Qeyd etdiyimiz kimi, yaradıcılığında mif-folklor düşüncəsinə geniş yer verən, folklorizmin bir çox təzahür formalarını əks etdirən Mövlud Süleymanlı da folklora qeyri-ixtiyari müraciəti ilə seçilən yazıçılardandır. Onun əsərləri mifologiya və yazılı ədəbiyyat, folklor və yazılı ədəbiyyat ədəbi əlaqələrinə xüsusi bir zənginlik gətirərək, bədii nəsrimizin ideya-bədii təsir gücünün, müasirlik və aktuallıq keyfiyyətlərinin üzə çıxarılması baxımından əhəmiyyətli tədqiqat işi kimi diqqəti cəlb edir. M.Süleymanlının “Dəyirman” povesti bədii nəsrimizin folklorla əlaqəsinin tədqiqi sahəsində yeni istiqamət açmış və nəsrimizin tarixi köklərə, mifoloji düşüncə sisteminə yön aldığını müəyyənləşdirməyə imkan yaratmışdır. Yazıçının əsərdə təsvir etdiyi hadisə və obrazlar öz reallığı, həyatiliyi, tipikliyi ilə seçilir və əhvalatların arxasında gizlənmiş tipik cəhətlər, ictimai yaralar ustalıqla açılıb göstərilir. Akademik K.Abdulla mifoloji surətlər və onların tipik cəhətlərindən bəhs edərək yazır: “Mifoloji surət və müəllifin surəti mətndə bəzən üst-üstə düşür, bəzən yox. Surətlər üst-üstə düşməyəndə hər iki tərəf yasaq sistemindən istifadə hüququnu özündə saxlayır. Bədii yasağı bu şəraitdə müəllif də mətnə daxil edə bilər, mifoloji düşüncə də” [1, s.237].

Dərin müşahidə qabiliyyətinə malik olan, təsvir etdiyi hadisələrin mahiyyətinə ecazkar şəkildə nüfuz edən M.Süleymanlının əsərləri folklorşünaslıq və müasir bədii nəsrimizin sistemli şəkildə öyrənilməsində zəruri mənbədir. Ən adi hadisələrin təsvirində belə M.Süleymanlı qələmi böyük bir aləm açmış, hətta ilk baxışda kiçik görünən hər hansı bir folklor motivini bədii əsərin dil, üslub və məzmununda çox ustalıqla inikas etdirmişdir. Əlbəttə, M.Süleymanlının mifoloji düşüncələrlə zəngin olan “Dəyirman” povesti bir tərəfdən utopik arzularının, ikinci bir tərəfdən, cəmiyyətdə rast gəldiyi reallıqlardan, çətinliklərdən doğan ruh halının bədii

ifadəsidir. Yazıçı bu povestdə bir çox mifoloji düşüncə dəyişikliyinə və mifoloji qarşıdurmaya nəzər yetirib. Əsərdə hadisələr kənddə və kəndin yaxınlığındakı dəyirmanda baş verir. Əsərdəki kəndin təsviri adi coğrafi kənd, məkan təsviri deyil, bu kənd ilk növbədə ulu əcdadlarımızın yaddaşla, qanla nəsildən-nəsilə ötürərək yaşatdıqları, qoruyub saxladıqları, habelə etnik-mədəni dəyərləri hələ də işləyən əlahiddə bir məkandır. Lakin təsvirini tapmış kənd sakinlərinin böyük əksəriyyəti mifoloji dünya ilə şüurlu əlaqələrini tam itirməsi ilə seçilir. Kənd və dəyirman – əsərdə işlədilən bu adi məkanlar tədricən itirilən mifoloji dünyanın iki şər qarşıdurması kimi çıxış edir. Əsərdəki obrazlar bunun fərqinə varmırlar, çünki bunu dərk edə biləcək qədər düşüncəyə sahib deyillər. Nəticədə təsirini ömründə belə duymurlar. Halbuki insan təfəkkürünün ən ilkin çağları ulu əcdadlarımızın dünyanı dərk edərək ad qoymağa, başa düşərək hər şeyin izahını verməyə çalışdıqları dövr üçün iki şər qarşıdurmasının mövcudluğu xarakterik cəhət olmuşdur. Ölüm-həyat, sağ-sol, aşağı-yuxarı, işıq-qaranlıq, isti-soyuq, təbiət-mədəniyyət və s. kimi qarşıdurmalar mifoloji dünyanın günümüzə gəlib çatmış inam atributlarıdır. Professor A.Acalov yazır ki, "Azərbaycan folklorunda iki şər qarşıdurmaların pozulma və tarazlaşma yeri olaraq ən çox hamam, dəyirman, qalaça və mağara çıxış edir" [Acalov A. Bakı, 1981]. Qarşıdurmaların pozulma və tarazlaşma yeri kimi dəyirmanın seçilməsi təsadüfi deyil. Çünki dəyirman xeyir-bərəkət rəmzidir. Dəyirman işlədikcə xeyir-bərəkət simvolunu qoruyub saxlayır, xarabalığa çevrildikdən sonra isə bir qayda olaraq, geniş mənada xaosun daşıyıcılarının və yaradıcılarının məkanına çevrilib. Bu pozulma və tarazlıq "Koroğlu" dastanında da dəyirmanda baş verən hadisələrdə özünü göstərir. Belə ki, "Koroğlu" dastanında "Keçəl Həmzənin Qıratı qaçırması qolu"nda dəyirmanda baş verənlər bu baxımdan maraq doğurur. Həmzənin qaçaraq "Qırx Dəyirmanlar" adlı yerdə, dəyirmanda gizlənməsi, dəyirmançını və Koroğlunu aldatması, özünü "unnuğa" salması, eləcə də "dəyirman çarxı" yuxarıda qeyd etdiyimiz məqamlarla oxşar mənzərə yaradır [3, s.153]. Əlbəttə ki, M.Süleymanlının povestində dəyirman iki şər qarşıdurmasının tarazlaşma yerinə yox, pozulma yerinə çevrilibdir. Belə ki, "köhnə suyu sovrulmuş dəyirmanıydı, kababxana eləmişdilər. Artıq dəyirman öz funksiyasını yerinə yetirmir. Dəyirmanda kəsilən heyvanların qanı arxdakı suya qarışıb bütün kəndin içindən keçir, hamı bunu görür. Amma həm dəyirmançıya, həm də Allaha kəskin şəkildə etirazını bir neçə nəfər bildirir. Kəndlə dəyirman eyniləşərək bütövləşir, adamlar da yaşadıqları mənəvi əxlaqi dəyərlərini itirirlər, necə ki dəyirman öz funksiyasını, dəyərini itirir. Kəndin kişilərinin böyük qismi vaxtının çoxunu dəyirmanda keçirir, kəndin arvadları isə yer əkir, bostan becərirlər.  Sarı Qasım, Ayat isə uşaqlara,

gənclərə düzgün nümunə olmaq, onlara doğru yol göstərmək, hal və hərəkətləri ilə örnək olmaq əvəzinə, özlərini bu cür ifadə edirlər: Kəndin uşaqları iki nəfərə həsəd aparır, onlara oxşamaq istəyirlər. Ayata baxırlar ki, "geyimi var, cibi pul görür, gündə kabab yeyir".

Heyvanların qanı axan suda oynayan uşaqların pak, məsum dünyasını dəyirman elə dəyişmişdi ki, artıq uşaqlar həqiqəti onlarla tapmağa çalışmış, mənəvi qəhrəmanlarının Koroğlu, Babək yox, məhz Sarı Qasım, Ayat olduğunu görüb, onların "şəxsi nümunəsi" ilə bu cür yaşamağın "faydalı" olmağını düşünərək nəticədə onlar kimi olmaq istəyirlər: "Sarı Qasım kimi altlarında maşın, ciblərində pulu olmağını istəyirlər. Əsas da sədrin qılığına girə bilsinlər. Yalanlamı, gerçəkləmi, oğurluqlamı, doğruluqlamı, qorxaqlıqlamı, nəylə olur-olsun Sarı Qasım kimi dolana bilsinlər...". Bu məqamda ataların belə bir deyimi yada düşür: "Gözü görməyən kimsə kor deyildir, əsl kor düşüncəsi kor olan kəsdir". Onu da qeyd edək ki, peyğəmbər (s.ə.s.) -in hədislərindən birində isə deyilir ki, "Bir gün gələcək haqla yalan, yaxşılıqla pislik yerlərini dəyişəcək və bundan da betəri olacaq, valideynlər övladlarına öz məqsədlərinə çatmaq üçün yalandan və pislikdən istifadə etməklərini tövsiyə edəcəklər". Bax, bu kənddə qeyd etdiyimiz hadisələr artıq baş verirdi. Dəyirmandakı özbaşınalığa son qoyan hadisə çobanın çıxartdığı xəncər oldu. Əlbəttə ki, bu xəncər təkcə qorxu, hürkü yaratmır, həm də namusu, əxlaqı, insanlığı təbliğ edir, kişiliyin, mərdliyin aşağı-yuxarı bölgüsünü, ulu əcdadlar və tarix tərəfindən müəyyənləşdirilmiş meyarları, milli, əxlaqi dəyərləri xatırladır. Xəncər nəinki dəyirmandakıları susdurdu, eləcə də dəyirman öz funksiyasını geriyə qaytarmasa belə, daha xarabalığa çevrilmiş kababxana olmayacaq. Yazıçının cəmiyyətin içərisindən götürüb təsvir etdiyi tiplərin iç üzünü açmaqda fikri, məramı budur ki, Sarı Qasım, Ayat və anası Roza, Telli qarı, Güllü arvad kimi insanların həyatları öyrənildikcə yaxşıların sayı artacaq. İnsanların müxtəlif böhranlara, ruhi sıxıntılara məruz qaldıqları bir cəmiyyətdə Sarı Qasım, Ayat kimi insanların yaşayış tərzləri, tövsiyyə və hərəkətləri dil, ifadə və mühakimə etibarilə də vəhdət təşkil edir. Çünki yazıçı öz obrazlarını səciyyələndirmək üçün onların dil və ifadələrindən istifadə edir. Əsərdə Sarı Qasım və Ayat obrazları bir-birini tamamlayır. Belə ki, biri deyir, o biri təsdiq edir. Telli qarı, Güllü arvad obrazlarını isə birləşdirən bir cəhət var: məcazi el müdriki siması. Yazıçı bu obrazlar vasitəsilə həyata olan münasibətini, fikir və düşüncələrini ifadə edir. Bununla əsərdə cəmiyyətimizin mühüm bir acı mənzərəsini əks etdirir. AMEA-nın müxbir üzvü K.Əliyev tədqiqatlarında bu məsələyə xüsusi diqqət yetirərək yazır: "Yazıçı mifik obraz və mifik süjetilə müasir həyata münasibətini ifadə edir. Yazıçı müasir həyatda görə bilmədiyinin təsəllisi üçün mifə

can atır" [5, s.334]. Maraqlısı budur ki, M.Süleymanlı müqayisəli təsvir yaradaraq, bu acı mənzərəni göstərməklə bərabər, sağlam, elmi bir mühitin formalaşması yollarını da oxucunun diqqətinə çatdırır, müxtəlif müsbət fikirlər irəli sürür. Məhz buna görə deyə bilərik ki, M.Süleymanlının əsərləri dövrümüzün ictimai-fikir tarixində özünün var olduğunu göstərən, cəmiyyətimizin görünən siması, oxucuların fikir və düşüncələrinə işıq salan güzgüdür. Əsərdəki obrazlardan da aydın olur ki, çirkab bir mühitdə formalaşan gənclərin həyatı təbii ki, ancaq belə ola bilər. Yazıçı onların həyatını, düşüncəsini, psixoloji aləmini daha canlı təqdim etmək üçün mifə də müraciət edir. AMEA-nın müxbir üzvü K.Əliyev bu fikirləri elmi məntiqlə aşağıdakı kimi də səciyyələndirir: "Yazılı bədii nümunədə obrazların düşüncəsini, psixoloji aləmini daha canlı təqdim etmək məqamında da mifə üz tutmaq yerinə düşür. Mifdən gələn enerji yazıçının yaratdığı obraza yeni ruh verir. Yazıçı qarşıya qoyulan ideyanın daha mükəmməl ifadəsi üçün nizamlı və harmonik sistem axtarışında olur və bu axtarışda ona mifdəki kosmosun bərpası daha yaxından kömək edir [5, s.335]. Mövlud Süleymanlının "Seçilmiş əsərləri" kitabının ön sözündə "Dəyirman" əsəri haqqında belə bir fikrə rast gəlirik: "Yazıçı Azərbaycan nəsrinə yeni dil, yeni üslub, təzə-tər obrazlar bəxş edə bilmişdir. Obrazlarını kollektivçilik məngənəsindən çıxarıb tarixə salır, at üstünə qaldırır, onun düşüncəsinin fərqli olduğunu bəyan edir. O, yasaq mövzuları yazıya gətirib fərdin yaşantılarını, psixoloji durumunun qatlarını incələyir" [9, s.7]. Bu fikirlər də təsdiq edir ki, maddi və mənəvi dəyərlərin dəyirman kimi üyüdülməsi, halallıq  kimi bağların zəifləməsini göstərən süjetlər cəmiyyətimiz üçün səciyyəvidir. "Hansı gücnən sənin başınnan basırlarsa, sənin başın da həmən gücnən geri basır", "Elə bil yer üzünü quyuya sallamışdılar, bir işıq gözləyirdi ki, tutub çıxsın",  "Ortada üç bişmiş toğlu başı vardı. Başın biri yerində sakitcə dururdu. Biri ağlayırdı, biri gülürdü" [9, s.8]. Əsərdən gətirilmiş bənzərsiz örnəklər bir daha göstərir ki, yazıçı M.Süleymanlı kəndi, şəhəri bürümüş ictimai problemləri, ağrıları, onların doğurduğu acıları təzadlı psixoloji əhvalatlar, emosional lövhələr fonunda orijinal təşbehlər, təzə-tər bənzətmələrlə izləmişdir. "Ölçüyəgəlməz harınlıq, haram, əxlaq pozğunluğu və əks qütbdə əziyyət çəkən ailələr, insanların təsviri əsərdə bədii gərginliyi son həddə çatdırır" [9, s.8]. İnsanlar arasında yaranmış ictimai problemlər və bu problemlərin gərginliyini aradan qaldırmaq üçün yenə folklor nümunələri köməyə gəlir. "Folklora istinadən hər hansı bir xalqın yalnız tarixi keçmişi deyil, onun psixologiyasını, adət-ənənəsini, həyata və dünyaya münasibətini öyrənmək də o qədər çətinlik törətmir. Folklorda insan ömrünün bütün məzmunu öz ifadəsini tapır", – söyləyən AMEA-nın müxbir üzvü K.Əliyev əlbəttə ki haqlıdır [5, s.257]. Onu da xüsusi qeyd edək ki, yazıçı təsvir etdiyi həyat həqiqətlərini bir az da

mürəkkəbləşdirir. Povesti oxuduqca insan belə qərara gəlir ki, cəmiyyətimiz uçuruma doğru yuvarlanmaqdadır. Cəmiyyət mühüm ziddiyyətlər qarşısında daxilən çürüməyə başlayıb. Əslində povest əxlaqi əhəmiyyətə malikdir, özündə cəmiyyətimizin əhval-ruhiyyəsini əks etdirir. Povestin əxlaqi əhəmiyyətini belə təyin edə bilərik: "Keçmişini, qüsurlarını görməyən insanlar irəli gedə bilməzlər". Folklora bağlılığı ilə seçilən bu povest məhz qeyd etdiyimiz əxlaqi dəyəri, üslubu və həqiqətin açıq-aşkar təsviri ilə M.Süleymanlının digər povestlərindən fərqlənir. Ümumiləşdirilmiş şəkildə desək, "Dəyirman" əsərində zahirən dəbdəbəli, işıqlı, hamar olan bir rejimin birdən-birə gerçək siması göründü, həqiqət bəlli oldu. Bütöv bir rejimin maddi və mənəvi dəyərləri dəyirman kimi üyütməsi sərt, real şəkildə açıqlandı. Kamil Vəli Nərimanoğlu isə əsər haqqında fikirlərini bu cür ifadə edir: "Nəşr olunduğu andan böyük səs-küyə səbəb olan "Dəyirman", sanki rejimin üzünə vurulmuş şapalaq idi" [9, s.7]. "Dolanışıq, bərəkət, halallıq mənbəyi olan dəyirmanların "cəhənnəm tərəzisi"nə çevrilməsinin acı səbəbləri, bu gün görünən acınacaqlı nəticələri öz zamanında böyük cəsarətlə qələmə alındı. Povestin ümumilikdə alt qatı, təhkiyə sistemi, az-çox, fəqət sərrast təbiət təsvirləri, obrazların talelərinin davamlı izlənməsi cəmiyyəti sarsıtdı. M.Süleymanlı dünyanın düz vaxtı "dünyanın düz olmadığından" söhbət açdı. Bir kəndin simasında bərəkət ocağı dəyirmanın bir qrup harın insan əlində əyyaşlıq meydanına çevrilməsi kinayə, bəzən acı sarkazm, gülüş doğuran yumorla ortaya qoyulmuşdur: "Dəyirmandakı "kötüklər" içməmiş birləşməzdi. Amma bu gələnlər elə biriydi, birləşib gəlmişdilər. İşdəmi birləşmişdilər, vəzifədəmi, puldamı, bilinmirdi", dəyirmanın balaca arxı rəngini dəyişə-dəyişə deşilmiş damar kimi qanlana-qanlana kəndin içinə sarı axırdı [9, s.8]. Folklora müraciətin özünəməxsusluğu və zənginliyi ilə bərabər, həyatilik də povesti oxucuya sevdirir. Çünki real, təbii olan əsər xalqı inandırır. Yazmaqla bərabər, yaxşı düşünən yazıçının düşüncələri səmimi olur, fikirləri ard-arda gəlir. "Xalq yaradıcılığının gözəlliyi onun təbiiliyində, səmimiliyində və sadəliyindədir" fikirlərinin müəllifi AMEA-nın müxbir üzvü K.Əliyev də məhz bu məqamları nəzərdə tutmuşdu [6, s.2]. Yazıçını Azərbaycan kəndlərində baş verən haramın halala, nahaqqın haqqa, pulun bütün insani münasibətlərə müdaxiləsi, ailə münasibətlərinin laxlaması, gənclərin şəhərlərə üz tutması, kəndlərin tənha qocaların ümüdinə qalması kimi problemlər ciddi düşündürürdü. Əsərdə qeyd etdiyimiz surətlərə verilən mənfi sifətlər mübaliğəli olsa da, real rüşeymini saxlamaqdadır. Povestin oxucuya müsbət təsir bağışlayan həyati və əxlaqi mənası da məhz bundan ibarətdir. Belə ki, yazıçı bir qayda olaraq təsvir etdiyi obrazın bu və ya digər mənfi eybəcərliyini, cismani şikəstliyini əsas götürərək onun tənqidə layiq bir surətini yaradıb. Yazıçı povestdə müşahidəyə də  xüsusi yer verir.

Bilirik ki, müşahidə bədii əsəri zənginləşdirir. Onu da vurğulayaq ki, "Dəyirman" əsəri M.Süleymanlının Azərbaycanın ədəbi-ictimai inkişaf tarixində tutduğu yüksək mövqeyi təsdiq edir. Məzmunu dolğun olan bu əsərlə cəmiyyətimiz haqqında zəngin bir təsəvvür əldə etmək mümkündür. Bu da diqqətimizi cəlb edir ki, yazıçı povest qarşısında məhdud bir vəzifə qoymuşsa da, əslində povestin məqsəd və qayələri daha da genişlənmiş, bugünkü dövrümüz üçün səciyyəvi məzmun kəsb etmişdir. Bu müşahidəni Sarı Qasım obrazında aydın görmək mümkündür: Sarı Qasım bu fikirdədir ki, varlandıqca adamın hörməti də artır. Bütün bunlarla bərabər, Sarı Qasım oğru, cani deyil, onun təbiətində olan görməmişliyi tərbiyə aldığı mühitdən irəli gəlir. Sarı Qasımın dostları varlı olsalar belə, nadan, axmaq, cahildirlər.

**Nəticə / Conclusion**

Zəngin müşahidəyə malik olan M.Süleymanlı təsvir etdiyi həyat hadisələrinə həm də soyuqqanlı yanaşması ilə diqqətimizi cəlb edir. Çünki onun təsvir etdiyi mühit pula düşgün, rəzil bir aləmdir. Məhz bu cəhətlərdir ki, yazıçıda hiddət və kədərə belə soyuqqanlılıq yaradıb. Nəticədə, o, yaşadığı mühiti təsvirə layiq maraqlı bir material kimi qələmə alır. Məhz buna görə müəllif mifoloji varlıqlardan da istifadə edərək içərisində yaşadığı ictimai şəraitin bir sıra mühüm cəhətlərini qabarıq şəkildə göstərə bilmişdir. Professor C.Bəydilinin fikirlərinə istinad edərək qeyd edək ki, "mifoloji varlıqlar az hallarda təbiətən mütləq ziyankar və ya mütləq xeyirxah olurlar. Bu, əlbəttə, insanların onlara qarşı nə şəkildə bir münasibət göstərmələri və ya davranmalarından çox asılıdır [4, s.41]. Povesti oxuduqca görürük ki, insanlar arasında münasibətlər də saxtadır. Bundan başqa, povestdə etnoqrafiya və folklora məxsus obraz və süjetlər də növbələşir. Yazıçı nəsr vasitəsilə həyatın rəngarəng səhnələrini, xüsusilə rəzalətlə dolu məişət səhnələrini təsvir edərək, folklorizmlərlə bu və ya başqa formada öz təəssüratını bildirir. Mifoloji təsəvvür və varlıqlardan da istifadə edərək xəyali mübaliğələrlə dolu bir tablo yaradır. Bütün bunlarla bərabər, əsərdə maraqlı bir aydınlıq, canlılıq, gözəl bir sadəlik var.

**İstifadə edilmiş ədəbiyyat / References**

1. Abdulla K. (2017). "Kitabi-Dədə Qorqud" poetikasına giriş. Dan sökülən variant. Bakı, "RS Poliqraf". 320 s.
2. Acalov A. (1981). Azərbaycan dastanlarının mifoloji semantikası. Azərbaycan Elmlər Akademiyasının xəbərləri, № 3. Bakı.
3. Azərbaycan dastanları. (2005). 5 cilddə, IV cild. Bakı, "Lider". 464 s.
4. Bəydili C. (2007). Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı, "Mütərcim". 272 s.
5. Əliyev K. (2017). Çağdaş folklorşünaslığın problemləri. Bakı, "Elm və təhsil".
6. Əliyev K. (2006). Romantizm və folklor. Bakı, "Elm və təhsil". 208 s.
7. Qafarlı R. (2015). Mifologiya. 6 cilddə, I cild. Bakı, "Elm və təhsil". 454 s.
8. Qasımov C. (2011). Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi. Bakı, "Nurlan". 600 s.
9. Süleymanlı M. (2006). Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb". 480 s.